# Azərbaycan Prezidenti İlham Əliyev “CNN Türk” televiziya kanalına müsahibə vermişdir

**Rusiyadan gözləntimiz üçtərəfli Bəyanatın bütün müddəalarının yerinə yetirilməsidir**

Azərbaycan Prezidenti İlham Əliyev “CNN Türk” televiziya kanalına müsahibəsində bir çox məsələlərə toxunub və mühüm mesajlar verib. Belə ki, avqustun 14-də baş tutan müsahibədə “CNN Türk” televiziyasının jurnalistini qəbul edən ölkə başçımız ona verilən sualları cavablandırıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistanla bağlı münasibətlərə toxunub və onların törətdikləri təxribatlardan, 2020-ci il 10 noyabr tarixində imzalanan 3 tərəfli Bəyanatın müddəalarının yerinə yetirilib-yetirilməməsindən söz açıb. Qeyd edək ki, bu saziş Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanıb və bununla da 27 sentyabr tarixində başlayan Vətən Müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatıb. Müharibənin başa çatmasına baxmayaraq, görünür ki, düşmən tərəf hələ də bu məğlubiyyəti qəbul etmək istəmir və Bəyanatın müddəalarını sərt şəkildə pozmağa davam edir.

“Üçtərəfli Bəyanatı Azərbaycan, Rusiya və Ermənistan rəh-



bərləri imzalayıb və onların böyük qismi artıq gerçəkləşib. Amma bəzi məsələlər var ki, hələ də öz həllini tapmayıb. Gözləntimiz bundan ibarətdir. Rusiya Azərbaycanın qonşusu və Ermənistanın yaxın müttəfiqi kimi, əlbəttə, bu bölgədə xüsusi rol oynayır. Bu, təbiidir. Ümid edirik ki, Rusiya bundan sonra da bu bölgənin təhlükəsizliyi üçün öz səylərini əsirgəməsin və uzunmüddətli sülhü təmin etmək üçün addımlar atsın. Eyni zamanda, bizim gözləntimiz odur ki, Rusiya Ermənistanı silahlandırmasın”,-deyə, çıxışında qeyd edən prezident İlham Əliyev bundan narahat olduğunu və bu narahatlığını Rusiyaya bildirdiyini də xüsusilə qeyd edib.

Prezident İlham Əliyev çıxışında da vurğuladığı kimi Rusiya 30 il ərzində Ermənistana milyardlarla dollar dəyərində pulsuz silah-sursat verib. Və biz o silahların Vətən müharibəsində Azərbaycan ordusuna qarşı istifadə olunduğunun şahidi olduq. Ölkə başçısınında çıxışından bəlli olduğu kimi artıq o silah-sursatların bir qismi hazırda müharibədən sonra salınan Hərbi Qənimətlər Parkında dağılmış muzey eksponatları kimi sərgilənir. Rusiyanın əsas missiyası bu gün Qarabağda, iki ölkə arasında sakitliyi təmin etmək və üçtərəfli Bəyanatın bütün müddəalarını yerinə yetirilməsidir. Bu artıq onu göstərir ki, Ermənistan ordusu, müzəffər Azərbaycan Ordusu tərəfindən darmadağın edilib. Bu gün ermənilər nə qədər təxribatlar törətməyə çalışsalar da, müzəffər ordumuz düşmənə layiqli cavabını verir və daim də verməyə hazırdır. Prezident İlham Əliyevin dili ilə desək, “Dəmir yumruq hələ də qüvvədədir!”

Müharibədən sonra Ermənistanda baş verən hadisələr göstərir ki, artıq rəhbərlikdə bu məğlubiyyəti qəbul etməyə başlayır. Bunu ölkədə keçirilən son parlament seçkiləri də sübut edir.

Bəli, İlham Əliyev müsahibəsində artıq çox açıq şəkildə öz sözlərini lazımi yerlərə çatdırdığının bir daha şahidi olduq. Bu o deməkdir ki, istər Rusiya, istərsə də digər ölkələr artıq öz vəzifələrini yerinə yetirməli və Ermənistanı məğlub, Azərbaycanı isə qalib ölkə kimi tanımalıdır.

Ermənistanın yeni müdafiə nazirinin çox məsuliyyətsiz açıqlamalar verdiyini bildirən Prezident İlham Əliyev deyib: “Yəni, görünür, İkinci Qarabağ savaşı hələ ki, hər kəs üçün dərs olmadı. Əgər belədirsə, biz dərsini yenidən verməyə hazırıq”. Dövlət başçımızında dediyi kimi, ordumuz hər an hazırdır və düşmənə layiqli cavab verməyə yetərincə gücümüz, silahımız var.

**“Qəbələ”**

# Vətən müharibəsi şəhidinin ailəsinə orden təqdim edilib

Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 9 dekabr 2020-ci



il tarixli sərəncamı ilə Vətən müharibəsində göstərdiyi igidliyə görə təltif edilmiş Qəbələ rayonu Əmirvan kənd sakini polkovnik-leytenant Abdurəhmanov Əfqan Ağasəf oğlunun ailəsinə “Qızıl Ulduz” ordeninin təqdim edilməsi ilə bağlı Qəbələ Mədəniyyət Mərkəzində tədbir keçirilib. Tədbirdə rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsinin nümayəndələri və şəhidin ailə üzvləri iştirak edib. Öncə Vətən müharibəsi zamanı həlak olmuş bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, qazilərə şəfa, şəhid valideynlərinə səbr dilənib. Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev 44 günlük Vətən müharibəsində hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş polkovnik-leytenant Əfqan Abdurəhmanovun keçdiyi döyüş yolundan və şəhid ailələrinə dövlət tərəfindən göstərilən qayğıdan söz açmış, ölkə Prezidentinin sərəncamı ilə təsis edilmiş “Qızıl Ulduz” ordenini şəhidin oğluna təqdim etmişdir. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.

# Müşavirə keçirilib

Rayon icra hakimiyyətində Koronovirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınma-



sı və əhalinin vaksinasiya olunmasının sürətləndirilməsi məqsədi ilə onlayn müşavirə keçirilib. Rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilat rəhbərlərinin, eləcə də inzibati ərazi dairələri üzrə nümayəndələr və bələdiyyə sədrlərinin iştirak etdiyi müşavirədə rayonda aparılan vaksinasiya işləri müzakirə edilib. Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayon ərazisində koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və əhalinin vaksinasiya olunmasının sürətləndirilməsi barədə müvafiq tövsiyə və tapşırıqlarını verib.

# Vətən müharibəsi şəhidi Əsəd Zeynallının doğum günü münasibətilə xatirəsi anılıb






Vətən müharibəsində öz canlarını qurban verərək şəhid olmuş Qəbələnin qəhrəman oğullarından biri, Seyidqışlaq kənd sakini Zeynallı Əsəd Ərzuman oğlunun doğum günü münasibətilə rayon icra hakimiyyətinin, təhsil şöbəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşları, şəhidin ailə üzvləri və təhsil aldığı məktəbin kollektivi şəhidin məzarını ziyarət ediblər. Əsəd Zeynallının məzarı üzərinə gül dəstələri qoyularaq xatirəsi sonsuz ehtiramla anılıb və ruhuna dualar oxunub. Göstərilən yüksək diqqət və qayğıya görə şəhidin valideynləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.